

FAİQ QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# ÖMÜR BAHAR DEYİL...

... Vətən uğrunda döyüşənlər, Vətən uğrunda vuruşanlar və Vətən uğrunda şəhid olanlar heç vaxt nədənsə çəkinməyiblər. Çünki Vətən onların canı, ürəyi, qəlbidi. Canı, ürəyi və qəlbi olan, Vətən uğrunda döyüşən o igidlər hər an, hər dəqiqə düşmənin üstünə şığıyıblar, döyüşüblər, onların dizini yerə qoyublar və Azərbaycan bayrağını uca tutublar... Və Vətən uğrunda şəhid olan, öz qanıyla torpağımıza məlhəm qoyan bu oğullar yaxşı bilirdilər ki, onları qarşıda nə gözləyir...

... Son bir həftədə ermənilərin fasiləsiz olaraq atəşkəsi pozması və ağır artilleriyadan cəbhə bölgəsindəki mövqelərimizi atəşə tutması, mülki əhalini, güllə-baran etməsi təbii ki, Azərbaycan əsgərini heç vaxt rahat buraxmazdı. Yəni Azərbaycan əsgəri və Azərbaycan ordusu onların cavablarını verməli idi və verdi də! Bu gün hər bir Azərbaycanlı Tovuza gedən döyüşdə qəhrəmancasına həlak olmuş o igidlərə bənzəmək istəyir. Hər bir azərbaycanlı şəhid olmuş general-mayor Polad Həşimova bənzəmək istəyir... hər bir azərbaycanlı şəhid olmuş polkovnik, artilleriya komandiri İlqar Mirzəyevə bənzəmək istəyir... hər bir azərbaycanlı şəhid olmuş mayor Namiq Əhmədova bənzəmək istəyir... hər bir azərbaycanlı şəhid olmuş mayor Anar Novruzova bənzəmək istəyir... hər bir azərbaycanlı şəhid olmuş gizirlər İlqar Zeynallıya, Yaşar Babayevə və müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər Elçin Mustafazadəyə bənzəmək istəyir... Və eləcə də bu döyüşdə şəhid olmuş digər əsgərlərimizə bənzəmək istəyir. Onların hər biri bir evdən deyil, Azərbaycandan gedən oğullardılar! Yəni onların kədəri tək doğmaları, əzizləri üçün deyil, bütün Azərbaycanın dərdi, kədəridir. Elə bütün Azərbaycan da o şəhidlərin cənazələrini çiyinlərində son mənzilə yola salırdı. Və bütün Azərbaycan o dərdi çiyinlərində çəkirdi. Çünki onlar mənim, sənin və bizim xoşbəxt gələcəyimiz üçün, torpağımızın yağılardan azad olunması üçün döyüşərək qəhrəmancasına şəhid olublar. Onların qanı tökülən Azərbaycan torpağında lalələr baş qaldıracaq... Onlar lalə kimi, çiçək kimi, gül kimi yenidən torpaqdan boylanacaqlar... Boylanacaqlar ki, yenidən bizim yanımızda və aramızda olsunlar. Və onlar həmişə yanımızda və aramızda olacaqlar...









**Polkovnik İlqar Mirzəyevin dəfn mərasimində oğlunun çıxışı hamı kimi məni də kövrəltdi. O, insan dalğasına, insan selinə baxıb bir təsəlli tapdı. Üstəlik də cənab prezidentin onunla telefonla danışması bu gəncin ürəyində çox böyük inam və ümid yaratdı. İnam və ümid yaratdı ki, onlar heç də tək deyillər. Prezidentdən tutmuş bütün xalqa qədər hamı onların yanındadır. Əgər xalq sənə dəstək verirsə, sənin əzizini və şəhid atanı sevirsə, deməli, bu sevgi əbədidir.** Əbədi olan sevgi isə həmişə insanları sabaha, gələcəyə, işıqlı bir aləmə aparır. Xalqın sevgisi və xalqın məhəbbəti heç vaxt tükənən deyil. O uşağın, o gəncin gözlərində ağır kədər hiss olunsa da, ancaq xalq sevgisi istər-istəməz bu dərdi yüngülləşdirirdi.

**General-mayor Polad Həşimov çox şərəfli və namuslu bir yol keçib. Onun o qədər böyük ürəyi varmış ki, adam məəttəl qalır. Belə ki, 2016-cı ilin aprel döyüşlərində ona ev bağışlanılır, o isə evi bir şəhid ailəsinə hədiyyə eləyir. Bax, bu ürəyin sahibi idi general-mayor Polad Həşimov! Bu general üçün göz yaşı axıtmamaq, onu sevməmək günah olardı! Silahdaşlarından tutmuş onu tanımayan adamlara qədər hamı o kədərin içərisində boğularaq o ailəyə, o nəslə söykək olurdu. Azərbaycan generalı əsgərdən qabaq səngərdə idi və əsgərləri ilə bir yerdə döyüşərək şəhid oldu. Bax, budur Azərbaycan generalının həyat yolu!..**

**Sumqayıtdakı mənzilinə aparılanda yenə möhtəşəm insan dalğası şəhid generala öz sevgisini göstərdi. "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndi. Mənim ən çox diqqətimi cəlb edən onun sadə bir evi olması idi. O evin eyvanı da, özü kimi çox sadə idi. Hansı ki, generallar var, neçə-neçə villaları, imarətləri diqqəti cəlb eləyir. Amma bu dünyadan köçəndə heç kəs imarəti, var-dövləti ilə yadda qalmır. Yadda qalan general-mayor Polad Həşimov kimi namuslu və vicdanlı insanlara olan el məhəbbətidir. O namuslu və vicdanlı insan ki, heç vaxt özünü xalqdan və millətdən ayrı tutmayıb. Onlar həmişə xalqın, millətin arasında olub. Xalqa və millətə yaxın olan generallar isə həmişə sevilib, seçilib və yadda qalıb. Bir onu bilirəm ki, bizim hərb tariximizdə general-mayor Polad Həşimov öz igidliyi və şəhidliyi ilə yeni bir qızıl səhifə yazıb və başqalarına da nümunə göstərib! Eşq olsun, belə Vətən oğullarına!**

**Vətənin ən ağır, ən çətin günündə bütün xalq ayağa qalxaraq Azərbaycan prezidentinə və Azərbaycan ordusuna dəstək verdi. Bu möhtəşəmliyi, bu insan selini görmək və onların arasında olmaq çox qürurverici anlar idi. O anlar ki, biz bunu 2016-cı ilin aprel döyüşlərində də görmüşdük. Onda da yeniyetmədən tutmuş 77-ə qədər bütün insanlar prezident və Azərbaycan ordusu ilə həmrəyliyini bildirmiş, cəbhəyə gedib döyüşmək istədiklərini bəyan etmişlər. Bax, onda da belə coşqu idi... onda da belə möhtəşəmlik idi... indi də belədi... İzdiham və coşqu vardı...**

**Vətən sevgisi pulla alınmır... Vətən sevgisi heç də adi sevgi deyil. Bu Allah sevgisi, Allah məhəbbəti qədər müqəddəs bir hissdir. Və bu müqəddəs hissdən istifadə edərək qara məqsədlərə yönəltmək vətənə xəyanət deməkdir. Millətin ağır günündə onun möhtəşəmliyindən, sevgisindən yararlanaraq qara niyyətlərini həyata keçirmək istəyən qara qüvvələrin qarşısı hər zaman, hər an alınmalıdır. Çünki bu qara qüvvələr millətin bu ağır günündə həmişə milli birliyi dağıtmağa, pozmağa çalışmış, qaragurçu niyyətlərini həyata keçirməyə can atmışdılar.**

**Həmişə olduğu kimi, onların bu dəfə də iç üzü açılacaq. Duru suyu bulandırmaq, onun içində balıq axtarmaq qara qüvvələrin zamanından və məkanından asılı olmayaraq, həmişə çirkin məqsədi olub. Bu çirkin əllər və çirkin məqsədlər ifşa olunmalı, üzə çıxarılmalı və onların maskaları yırtılmalıdır. Vətənin ağır günündə kimdənsə qisas almaq, kimdənsə intiqam almaq ən böyük cahillik və nadanlıqdı.**

**... Döyüşlər bu gün də səngimir. Yəni yağı düşmən atəkəsi pozur, mövqelərimizə zərbələr endirir. Amma cavablarını da alırlar. Ermənilərin ağlı 1990-cı illərin əvvələrinə gedib. Elə bilirlər ki, mövqelərimizi ağır artilleriyadan atəşə tutmaqla və daxildə təxribat yaratmaqla şəhərlərimizi, kəndlərimizi camaat qoyub qaçacaq. 2016-cı ilin aprel döyüşlərində Lələtəpə uğrunda gedən ağır döyüşdə Horadiz şəhərindən bir nəfər belə yerindən tərpənmədi. Bütün mülki əhali öz ocağında, öz evində idi. Çünki onlar yaxşı bilirdi ki, qarşıda möhtəşəm Azərbaycan ordusu var. Və indi də Tovuzda sərhədyanı kəndlərdə döyüşlər getsə də, bir sakin də evini tərk etmir. Ona görə ki, qarşıdakı səngərdə onları qoruyan, düşmənlə döyüşən Azərbaycan ordusu, Azərbaycan əsgəri var!..**

**... Şəhidlər bu vətənin, bu millətin, bu dövlətin yolunda canlarını qurban veriblər. Və onalrın bu vətən qarşısında heç bir borcu, heş bir yükü qalmayıb. Əksinə, bizim onlar qarşısında çox böyük borcumuz, vəzifəmiz var. Biz o şəhidlərin ruhunu şad eləmək üçün, onların qisasını almalı, torpaqlarımızı işğaldan azad etməli və hər birinin ailəsini, balasını göz bəbəyi kimi qorumalıyıq. Yazımı böyük Musa Yaqubun bir bənd şeiri ilə bitirmək istəyirəm:**

Bəlkə də borcundan çıxmadım, Vətən,
Ömür bahar deyil bir də qayıtsın.
Ölsəm də qoynunda qoy ölüm ki, mən
Çürüyüm, bir ovuc torpağın artsın!